*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 iyun 2018-ci il № 45 (2261) Qiyməti 25 qəpik


# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında iştirak edib




*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyinin Raket Qoşunlarının "N" hərbi hissəsinin açılışında iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlətimizin başçısına raport verdi.

Bildirildi ki, hərbi hissənin inşasına 2017-ci ilin mayında başlanılıb. Ümumi ərazisi 36 hektar olan hərbi hissədə qərargah binası, əsgər yeməkxanası və yataqxanası, idman və sıra düzülüş meydançaları, maşınlar üçün qaraj, nəzarət buraxılış məntəqəsi, nəzarət qüllələri quraşdırılıb.

Hərbi hissənin qərargah binası müasir səviyyədə inşa olunub. Binada hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb. Bu cür müasir qərargah binalarının yaradılması hərbi potensialın artırılması, əsgər və zabitlərin xidmət şəraitlərinin yüksək səviyyədə təmin edilməsi istiqamətində dövlətimizin atdığı mühüm addımların ardıcıl olduğunu bir daha göstərir.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin açılışında iştirak edib



(Əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasında yaradılan şəraitlə də tanış oldu.

Yataqxana binasında əsgərlərin qalması və istirahəti üçün hərtərəfli şərait var. Burada məişət və əşya otaqları, dəftərxana və digər zəruri otaqlar yaradılıb. Yataqxanadakı ideoloji otaqda hərbi qulluqçular Azərbaycanın hərb tarixinin şanlı səhifələri barədə məlumat alacaqlar.

Hərbi hissədə əsgər və zabitlərin idmanla məşğul olmaları üçün də yaxşı şərait var. Burada quraşdırılan idman meydançasında hərbi qulluqçular minifutbol, basketbol və voleybolla məşğul ola biləcəklər.

Hərbi hissənin əsgər yeməkxanası da müasir səviyyədədir. Təmiz və işıqlı yeməkxana binasında hərbi qulluqçulara bol enerjili, ekoloji təmiz və rasiona uyğun yeməklər verilir. Bütün bunlar bir daha göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində mühüm işlər görülür, hərbi qulluqçuların xidməti, yaşayış və istirahət şəraitlərini yüksək səviyyəyə çatdırmaq məqsədilə konkret addımlar atılır.

Hərbi hissənin raketlərin yoxlanılması anqarında zəruri avadanlıq quraşdırılıb. Burada raketlər təmir ediləcək və yoxlanılacaq. Burada, həmçinin raket meydançası da yaradılıb. Bu hərbi hissədə belə müasir infrastrukturun yaradılması onun strateji əhəmiyyətini daha da artırır.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev raketlərin saxlanması və döyüş maşınlarına yüklənməsi anqarına da baxdı.

Yeni hərbi hissənin ərazisində iriqabaritli hərbi maşınlar üçün saxlanma anqarı, yanacaqdoldurma məntəqəsi, açıq test meydançası yaradılıb. Ümumilikdə, burada görülən işlər ordu quruculuğu sahəsində son illərdə aparılan məqsədyönlü islahatların tərkib hissəsidir.

Dövlətimizin başçısı döyüş texnikası parkında hərbi texnikaya baxdı.

Ali Baş Komandana əməliyyat-taktiki raket kompleksi olan "POLONEZ" barədə məlumat verildi. Onun maksimal atış uzaqlığı 300 kilometrə qədərdir. Raketin çəkisi 780 kiloqram, döyüş başlığı hissəsinin çəkisi 140 kiloqram, zərərvurma radiusu isə 80 metrdir. "POLONEZ"in maksimal uçuş müddəti saniyədə 310 metr, atışa hazırlıq vaxtı 10 dəqiqə, istismar müddəti isə 10 ildir. Bir döyüş maşınında 8 raket olur. Bu kompleks düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunların əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurulması üçündür. Bundan başqa, kompleks vasitəsilə dənizsahili istiqamətlərdə düşmən donanmasının yerləşmə məntəqələri dağıdılır və onun döyüş gəmiləri məhv edilir.



Əməliyyat-taktiki raket kompleksi olan "LORA" da "POLONEZ" kompleksi kimi döyüş zamanı eyni məqsədlər üçün istifadə edilir. Maksimal atış uzaqlığı 300 kilometrdən artıq olan bu kompleksin raketinin çəkisi 1580 kiloqram, döyüş başlığı hissəsinin çəkisi isə 240 kiloqramdır. Raketin zərərvurma radiusu 100 metr təşkil edir. Bir döyüş maşınında 4 raket olur. Onların maksimal uçuş müddəti saniyədə 300 metrdir, atışa hazırlıq vaxtı 13 dəqiqə, istismar müddəti 10 ildir. Həm "POLONEZ", həm də "LORA" kompleksləri GPS və İNS sistemləri ilə idarə olunur.



Bütün bunlar göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son dövrlərdə ordumuzun müasir silah-sursat, hərbi texnika ilə təminatı məsələsinə xüsusi diqqət və qayğı ilə yanaşılır. Təsadüfi deyil ki, bu gün ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var. Azərbaycan Ordusunun madditexniki bazasının yüksək səviyyədə təminatı üçün müasir silah-sursat, hərbi texnika xaricdən alınır. Bununla yanaşı, Ali Baş Komandanın diqqət və qayğısı sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi də Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 iyun 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 97 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şirvanlı, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndi yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***12 iyun 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 89 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Baş Qərvənd, Cəvahirli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Dağlıq Qarabağ heç zaman ermənilərin olmayıb və olmayacaq"

Dağlıq Qarabağ münaqişəsi Ermənistana və ermənilərə heç nə qazandırmayıb. Erməni xalqı bu münaqişənin nəticəsi olaraq yalnız ağır sosial problemlər içərisində qalıb. Ermənistandakı çətin iqtisadi vəziyyət səbəbindən on minlərlə insan evlərini tərk edib və xarici ölkələrə köçüb. Bu gün Yerevanda və başqa şəhərlərdə nə qədər evlərin qapısı bağlı qalıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri erməni əsilli yazıçı, "Literaturnaya Kanada" almanaxının baş redaktoru Vaaqn Karapetyan ermənilərə müraciətində deyib. O bildirib ki, ölkəni tərk edən erməni ailələri bu addımı sadəcə ac qalmamaq üçün atırlar. Artıq ermənilər sabaha ümid etmirlər, uşaqlarının gələcəyini Ermənistanda görmürlər. Erməni siyasətçiləri dərk etməlidirlər ki, Dağlıq Qarabağ heç zaman Ermənistanın olmayıb və olmayacaq. Bu gün Dağlıq Qarabağdakı ermənilər də oranı tərk edirlər. Bundan əvvəl ermənilər deyirdilər ki, onların Dağlıq Qarabağda yaşamalarına azərbaycanlılar imkan vermir, bəs bu gün niyə oranı tərk edirlər? Erməni əsilli ziyalı vurğulayıb ki, Ermənistanın apardığı işğalçı siyasət Dağlıq Qarabağ ermənilərini də aclığa və səfalətə məhkum edib. Əvvəllər azərbaycanlılar və ermənilər Dağlıq Qarabağda mehriban yaşayırdılar. Müharibə nəticəsində heç bir erməni heç nə əldə etməyib. Mənim qohumum David də müharibəyə getdi və cənazəsi gəldi. Erməni siyasi elitası əsassız ərazi iddialarından əl çəkməlidir.

*15 İyun Milli Qurtuluş Günüdür*

# Dövlətçiliyimizin xilaskarı

*Xalqımızın yaddaşına əbədi həkk olunan 1993-cü il iyunun 15-i - Qurtuluş Günü tarixi gündür. Ölkəmizin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, dövlətimizin bütün sahələrdə uğurlar qazanılmasında, beynəlxalq aləmə sürətli inteqrasiyasında və tanıdılmasında əbədiyaşar tarixi şəxsiyyət Heydər Əliyevin xidmətləri danılmazdır. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun həqiqətən qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan, dövlətçiliyimizi xilas edən ulu öndər Heydər Əliyevdir .*

1993-cü ilin 15 iyun günü xalqımızın mübarizələrlə dolu yeni tarixinə yeni eranın başlanğıcı kimi daxil oldu. Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışıyla Azərbaycanda yeni siyasi bir dövr, yeni təfəkkür mərhələsi başlandı və bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təminat yaratdı. 1991-ci ildə Azərbaycanda olduqca təhlükəli bir vəziyyət yaranmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsindəydi. Respublikada xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat bərbad hala düşmüşdü, Heydər Əliyevin Sovet hakimiyyəti illərində qurub yaratdığı iqtisadi potensial amansızcasına dağıdılırdı. Respublikamızda sabitliyin bərpa olunacağına ümid yox idi.



Mövcud problemləri aradan qaldıra biləcək yeganə qüvvə yalnız Heydər Əliyev ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi. Yenicə müstəqillik əldə etmiş ölkəmiz bundan dərhal sonra onu itirmək təhlükəsi qarşısında qalmışdı. Xalq Heydər Əliyevi təkidlə hakimiyyətə çağırdı. Azərbaycan üçün çətin, mürəkkəb vaxtda ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün ciddi təhlükə qarşısında qaldığı anda Heydər Əliyevə müraciət edən xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Yalnız ümummilli liderimiz ölkəmizin ərazi bütövlüyünü təmin etmək və xalqımızı müstəqilliyin azad inkişaf yoluna çıxmaq gücündə idi. Məhz bu baxımdan xalq özünün sınanmış liderini hakimiyyətə gəlməyə, müstəqil Azərbaycan dövlətini xilas etməyə israrla dəvət etdi.

Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. Bu təkidli dəvəti qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu böyük tarixi şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə gəldi, vətəndaş qarşıdurmasının qarşısını aldı və xilaskarlıq missiyasını uğurla həyata keçirdi.

Qurtuluş günündən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsindən xilas oldu, inkişaf edən bir dövlətə çevrildi. Ölkənin xarici siyasəti milli maraqlarımıza uyğun quruldu, uğurlu neft strategiyası müəyyən edilib həyata keçirilməyə başlandı, ictimai həyatımızın bütün sahələrində hərtərəfli demokratik islahatlar aparıldı. Siyasi plüralizm, söz və mətbuat azadlığı təmin edildi, Şərqdə ilk dəfə Azərbaycanda ölüm cəzası ləğv edildi, ölkənin gələcək inkişafını şərtləndirən hərtərəfli şərait yaradıldı. Ulu Öndərin balanslaşdırılmış xarici siyasət kursunun nəticəsi olaraq ölkəmiz nüfuzlu beynəlxalq təşkilatlara üzv qəbul edildi, Azərbaycanın haqq səsi dünyada eşidilməyə başlandı. Uğurlu neft strategiyası, siyasi və iqtisadi islahatlar dünya dövlətlərinin diqqətini cəlb etdi və 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" kimi nəhəng bir saziş imzalandı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişi, Böyük İpək Yolunun bərpası üzrə konkret addımlar atıldı. Bütün bunlar əbədiyaşar Heydər Əliyevin siyasi fəaliyyətinin bəhrələridir, onun parlaq səhifələridir.

Fenomen şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, inkişaf etmiş, sivil dünya dövlətləri cərgəsinə çıxarmaq naminə var gücü ilə çalışırdı. Yorulmadan dünyanın böyük dövlətlərinin başçıları ilə görüşlər keçirir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırdı. Bu səfərlər zamanı dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımızın vəziyyəti ilə maraqlanır, onların azərbaycançılıq ideyası ətrafında birləşməsi üçün böyük səy göstərir, bütün ölkələrdə soydaşlarımızın mənəvi və mədəni həmrəyliyinin yaradılmasına, Azərbaycan diasporunun formalaşmasına böyük önəm verirdi. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - deyən Ulu Öndərimizin təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda dünya azərbaycanlılarının I qurultayı keçirildi. Bu gün erməni təcavüzkarlarının törətdiyi, qəddarlığına və amansızlığına görə faciələrin mahiyyəti, zaman-zaman Azərbaycana qarşı törədilən terror aktları, soyqırımı siyasəti dünya ictimaiyyətinə çatdırılır, Ermənistanın təcavüzkar dövlət kimi tanınması üçün səylər göstərilir. Bütün bu tədbirlərin həyata keçirilməsində Heydər Əliyevin formalaşdırdığı Azərbaycan lobbisinin də xidmətləri var. Bu ümummilli liderimizin siyasi uzaqgörənliyinin nəticəsidir, onun ideyalarının təntənəsidir.

Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ümummilli liderimiz Heydər Əliyev tərəfindən cəmiyyət və dövlət həyatının bütün sahələrində olduğu kimi, hüquqi sahədə də köklü islahatlar aparılmağa başlandı. Bu islahatların həyata keçirilməsinin əsası "Heydər Əliyev Konstitusiyası" kimi tarixə düşən, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan ilk milli Konstitusiyamız oldu. Təsis olunmuş müddəaların həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsiplərinin möhkəmləndirilməsi, hüquqi islahatların ardıcıl və keyfiyyətlə aparılması üçün Hüquqi İslahat Komissiyası yaradıldı. Hüquqi sahədə islahatların mütəşəkkil aparılmasına xüsusi əhəmiyyət verən Ümummilli Liderimiz Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü, qısa müddət ərzində hüquq sisteminin təməlini təşkil edən mühüm qanun və məcəllələr qəbul edildi, məhkəmə və hüquq mühafizə orqanlarının funksiya və səlahiyyətlərinə yenidən baxıldı. Nəticə etibarilə Azərbaycanda əvvəlkindən prinsipcə köklü surətdə fərqlənən yeni hüquq və 3 pilləli müstəqil məhkəmə sistemi formalaşdırıldı.

Görkəmli şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də siyasi varisi ölkə başçısı cənab İlham Əliyevi ərsəyə çatdıraraq müstəqil dövlətimizin ardıcıl inkişafı üçün zəmin yaratmasıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dahi şəxsiyyət Heydər Əliyevin siyasi kursunu qəti və prinsipial mövqeyi ilə davam etdirməklə xalqın böyük ehtiramını qazanmışdır. Qısa müddət ərzində əhalinin rifahının yaxşılaşmasında müstəsna rol oynayan tədbirlər həyata keçirilmiş, hər bir vətəndaşın hüququna hörmətlə yanaşılması, ona qayğılı münasibət göstərilməsi bütün dövlət strukturlarının qarşısında ali məqsəd kimi qoyulmuşdur. Aparılan düşünülmüş və ardıcıl iqtisadi siyasət və həyata keçirilən mühüm layihələr nəticəsində qısa zaman ərzində iqtisadi inkişaf sürətinə görə Azərbaycan regionda lider səviyyəsinə yüksəlmiş, ölkənin iqtisadi potensialı dəfələrlə artmışdır. Bu gün tam əminliklə deyə bilərik ki, praqmatik dövlət başçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin titanik səyi nəticəsində ölkəmiz yeni-yeni nailiyyətlərə imza atır. Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır.

İqtidarın monolit birliyi nəticəsində Ümummilli Liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə, inkişafını davam etdirməkdədir. Ən başlıcası Heydər Əliyev epoxası dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş milyonlarla soydaşımızı milli məfkurə əsasında birləşdirdi. Azərbaycan diasporunun yaradılması və möhkəmləndirilməsi təmin edildi. Ümumiyyətlə, 1993-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Bu gün Ulu Öndərin müəyyənləşdirdiyi strateji inkişaf kursunu uğurla reallaşdıran cənab İlham Əliyevin ölkəyə rəhbərliyinin leytmotivini sistemlilik, iqtisadi inkişafda dinamizm, beynəlxalq əməkdaşlıqda qarşılıqlı maraqlara əsaslanaraq, milli mənafelərin qorunması, xalqın rifahını yüksəltmək kimi amillər təşkil edir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə Ulu Öndərin layiqli varisi, praqmatik dövlət xadimi, dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezidentimiz İlham Əliyevdir və o da Heydər Əliyevə xas olan möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir, Azərbaycan dövlətinin qüdrətini, sarsılmaz təmələ malik olduğunu öz azərbaycançılıq fəaliyyəti ilə sübut edir. Prezidentimizin apardığı uzaqgörən daxili və xarici siyasət, onun xalqa səmimi məhəbbəti və doğma Vətənimiz naminə səmərəli fəaliyyəti hər birimizdə qürur hissi oyadır. Xalqımızın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin səriştəli idarəetmə qabiliyyətinin nəticəsidir ki, indi respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir. Bu gün Azərbaycan davamlı və sürətli inkişaf yolunda nurlu sabahlara doğru inamla irəliləyir. Milli Qurtuluş Günü Azərbaycanın indiki reallıqlarının və xoşbəxt gələcəyinin rəhnidir. Ulu Öndərin işləyib hazırladığı müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoymuşdur. Hazırda Azərbaycanın inkişaf etməsi məhz Qurtuluş Günü ilə başlayıb və həmin siyasət Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

**Ədliyyə polkovnik-leytenantı**
**Rəşad İSMAYILOV,**
**Naxçıvan MR Hərbi Prokurorluğunun şöbə rəisi**

# Raket bölmələri praktiki atışlar keçirib



Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq, raket bölmələri müasir tank əleyhinə idarə olunan raketlərin tətbiqi ilə praktiki atışlar keçirib. Atışlar döyüş şəraitinə maksimal yaxın vəziyyətdə gündüz və gecə vaxtlarında icra olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müasir və perspektivdə istehsal olunan tanklar, piyadaların döyüş maşınları (PDM) və digər zirehli texnika, eləcə də mühəndis qurğuları, uzunmüddətli atəş nöqtələri, aşağı



hündürlükdə uçan hava hədəfləri, örtüdə və açıq ərazidə yerləşən canlı qüvvəni məhvetmə qabiliyyətinə malik olan komplekslər sutkanın istənilən vaxtında, aktiv və passiv maneələrin istifadəsi şəraitində tətbiq edilə bilər.

Komandanlıq təlimlərdə iştirak edən şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirib.

Ön xətdən reportaj

# Hərbi and dövlətə sədaqət andıdır

*<u>Gedəcəyimiz bölgəyə çatmağımıza az qalırdı. Qatarın pəncərəsindən ətrafı müşahidə edirəm. Xeyli qabaq çıxmaqda olan günəşin sarı saçaqları təpələrin üstünə yenicə qonmuşdu. Təpələr işıqlıqda məğrur-məğrur dayanıb qoynunda lalələrin çiçəkləməsini gözləyir sanki. Getdikcə hava isinir. Yenicə bar verməyə başlayan ağacların sevinc işartıları onlardan çıxan buxarla ətrafa yayılır. Dağı-daşı, torpağı-suyu, səması bizim üçün əziz və doğma Vətəndə ağır-ağır irəliləyən qatardan baxanda mənzərələr bir-birini əvəz edir, insanın könül dünyasına qeyri-adi hökmranlıq edir. Həqiqətən bizim gözəl ölkəmiz, gözəl təbiətimiz var.</u>*

İlk ezamiyyətim olduğundan gördüklərim mənə çox maraqlı gəlir. Daim zirvələrdə dalğalanan Azərbaycan bayrağı sanki bu mənzərənin səyyarəsinə çevrilir. Bayrağımıza tamaşa etdikcə Ali Baş Komandan İlham Əliyevin dediyi sözləri xatırladım: "...Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır...". Bu bəyanat səslənəndə düşmən anlamalıydı ki, biz işğal olunmuş torpaqlara qısa müddətdə qayıdacağıq. Bəyanatdan bir müddət sonra ordumuz torpaqlarımızın bir hissəsini azad edərək, mühüm əhəmiyyətli yüksəklikləri öz nəzarətləri altına qaytardılar. İndi üçrəngli bayrağımız həmin yüksəkliklərdə - Lələtəpədə, Bayraqtəpədə dalğalanır. Bu qələbə bütün xalqı sevindirdi, coşdurdu, bir araya gətirdi, həm də düşmənə çalım-çarpaz dağ çəkdi. Düşmənin xəyallarda yaratdığı mif puç oldu, ordusunun heç nəyə yaramadığını, Azərbaycan Ordusunun nəyə qadir olmasını başa düşdü. Ermənilər bildilər ki, Azərbaycan xalqının minlərlə, milyonlarla igidləri vardır və onlar hər an işğal olunmuş torpaqlarımızı azad etmək iqtidarındadırlar. Bələdçi xanımın qatarın stansiyaya çatması haqqında xəbərdarlığı məni düşüncələrimdən ayırdı.



Azərbaycan! İgidlər, mübarizlər, qorxmazlar Vətəni. Doğma yurdumuz Azərbaycanın igid, cəsur oğulları həmişə vətənpərvər olmuş, qəhrəmancasına mübarizə aparараq Vətənimizi düşmənlərdən qorumuşlar. Həmin qəhrəman oğullarımızın layiqli davamçılarıyla söhbətləşmək üçün "N" hərbi hissəsinin düşmənlə üz-üzə yerləşən bölməsinə üz tuturuq. Asta-asta yoxuşa qalxan yolun hər iki tərəfi biçilməmiş taxıl zəmiləri olduğundan ətrafı bir o qədər seyr etməyə imkan olmur. Nəhayət, yolun sonuna çatır, hərbi qulluqçularımızın ümumi əhval-ruhiyyəsi ilə tanış oluruq. Hərbi hissədə bizi leytenant Elvin Tağıyev qarşılayır. Ətrafa göz gəzdirirəm. Çətin coğrafi şəraitdə, düşmənlə üzbəüz mövqedə Azərbaycan əsgəri üçün yaradılmış bu gözəl infrastruktur məni ürəkdən sevindirir. Ordumuzun bütün hərbi hissələrində olduğu kimi, cəbhənin ön xəttində də infrastruktur ən müasir tələblər çərçivəsində qurulub. Bu, ilk növbədə Azərbaycan dövlətinin öz hərbi qulluqçularına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Söhbət əsnasında öyrənirəm ki, zabit Elvin Tağıyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Zabit peşəsinə marağının haradan yaranmasını soruşuram. "İnsan həyatı boyu arzularla yaşayır", - deyə zabit söhbətə başlayır.

- Lakin bu arzuları reallaşdırmaq üçün yaşamalı və fədakarlıq göstərməlisən. Bu yolu öz istəyimlə seçmişəm. Vətən sevgisi imandan sayılır. Vətən sevgisi ən nəcib, ən ülvi sevgilərdən biridir. Ancaq bu sevgi yalnız sözdə olmamalıdır. Vətən üçün vuruşmaq Vətən sevgisinin bir təzahürüdür. Üzərində gəzdiyimiz, havasını udduğumuz, buz kimi sularından içdiyimiz müqəddəs Vətənimiz qarşısında bir çox vəzifələrimiz var. Bu vəzifələrin içərisində ən vacibi, ən müqəddəsi Vətəni, torpağı qorumaq vəzifəsi - hərbi xidmət gəlir. Onun üçün bu xidmət Vətən borcu olaraq dəyərləndirilir. Vətənimizin ən çətin günlərində mərd oğullarımız daim sinəsini sipər edərək mənfur düşmənə meydan oxumuş, gözdağı çəkmişlər. Vətən uğrunda ölmək şərəfdir. Elə oxuduğum orta məktəb də bələ igidlərimizdən biri şəhid Hümbət Vəliyevin adınadır. Uşaq vaxtlarından televizordan izlədiyim kadrlarda ermənilərin xalqımıza qarşı törətdikləri müsibətlər mənim yaddaşımda əbədi iz qoymuşdur. Həmişə məktəbdə hansı peşəni seçəcəyim barədə müəllimlərim sual verəndə tərəddüdsüz hərbçi olacağımı deyirdim. Bizi şəfqətli ana qucağı kimi bağrına basan bu torpaqları əldə silah, qışda-boranda, yağışda-qarda qorumağı, Vətənimə xidmət etməyi ən şərəfli vəzifə sayıram. Çünki Vətənimizin hər qarış torpağı şəhid qanları ilə yoğrulmuşdur. Bu Vətən bizlərin, torpağın qara bağrında sıra dağlar kimi dayananlarındır. Mən inanıram ki, qısa vaxtda biz indi dayandığımız mövqedən deyil, ermənilərin işğal etdikləri tarixi torpaqlarımızdan bu yerlərə baxacağıq.

Bu sözlər bir fərdə deyil, bütün hərbi qulluqçularımıza xas olan sözlərdir. Tabeçilikdə olanları tərbiyə etmənin ən yaxşı üsulu onlara şəxsi nümunə olmaqdır, deyirlər. Leytenant Elvin Tağıyevdə olan şəxsi nümunə həsəd aparılasıdır. Söhbətin bu yerində növbəni yeni dəyişib gəlmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ələsgər Çarçıyev söhbətimizə qoşulur.

- Azərbaycan Ordusu torpaqlarımızı hər an düşməndən azad etməyə qadirdir, - kiçik çavuş Ələsgər Çarçıyev deyir. "Vətənə xidməti həyatımın mənası hesab edirəm. Ön xətdə xidmət etmək, döyüş növbəsi aparmaq şərəfli və məsuliyyətlidir. Burada xidmət etməyin öz çətinliyi var. Düşmənlə üzbəüz mövqelərdə xidmət apardığımızı heç zaman yaddan çıxarmırıq və daim ayıq-sayığıq. Manqa komandiri kimi üzərimə düşən məsuliyyəti dərk edirəm. Tabeliyimizdə olan şəxsi heyətin fiziki, mənəvi-psixoloji və döyüş hazırlığına da ciddi fikir veririk. Çünki düşmənlə hər an döyüşə girmə ehtimalı olan hazırlıqlı əsgər çətinlikləri bir o qədər də asanlıqla dəf edər. Şəxsi heyətin döyüş hazırlığı ilə bərabər mənəvi-psixoloji durumuna da daim xüsusi diqqət yetirilir. Şəxsi heyətin döyüş ruhu qələbənin qazanılmasında əsas rol oynayır. İnanıram ki, xalqımızın sarsılmaz birliyi sayəsində aprel döyüşlərindəki uğurları təkrarlayıb, tezliklə işğala son qoyacağıq."

"Vətənə xidmət hər bir gəncin borcudur. Mən də hamı kimi öz vəzifə borcumu yerinə yetirməyə gəlmişəm. Hərbi formanı ilk geyindiyim günün sevincini heç bir duyğu əvəz edə bilməz. Əsgərlik həyat məktəbidir. O, insandan məsuliyyət, ciddilik və dözüm tələb edir. Xidməti vəzifə borclarıma məsuliyyətlə yanaşıram. Hərb sənətinə sevgim sonsuzdur. Daim ürəyimiz Vətənə məhəbbət, düşmənə nifrət ruhunda döyünür. Vətənim hər şeydən əzizdir. Onun hər zərrəsi, hər qarışı mənə doğmadır. Ön xətdə xidmət etmək ürəyimcədir. Əsgəri xidmətə gələndən komandirlərimdən daim doğma münasibət görmüşəm", - Sumqayıt şəhərindən hərbi xidmətə çağırılmış əsgər Hüseyn Ağayev belə deyir. Leytenant Elvin Tağıyev bildirir ki, Hüseyn postun ən təcrübəli əsgərlərindən biridir. Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu olduğunu öyrənirəm. "Heyif, yaxşı günlər ildırım sürətilə keçir. Baxmayaraq, hərbi xidmətimin sona yetməsinə az qalıb, tərxis olduqdan sonra da həyatımı hərb sənəti ilə bağlamaq, zabit olmaq istəyirəm. Çünki mən hərb işini vicdanla öyrənəcəyimə, əcdadlarımızın hərbi ənənələrini şərəflə davam və inkişaf etdirəcəyimə, Vətəni qoruyacağıma and içmişəm. Hərbi and dövlətə sədaqət andıdır".

Digər əsgərlər Cavid Hüseynəliyev, Səbuhi Kərimov, Sərxan Məhərrəmov, Səlim Məmmədov ordumuzun aprel döyüşlərindəki qələbəsini hər zaman təkrarlamaq iqtidarında olduqlarını bildirdilər. Qeyrət təcəssümü olan belə qəhrəman oğullarımızla hər zaman fəxr edirik.

**Leytenant
Samir HÜSEYNOV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Qazaxda şəhid Şahvələd Abbasovun adını daşıyan bulaq əsaslı təmir olunub

*Qazax şəhərinin M.Ə.Rəsulzadə küçəsində yerləşən şəhid Abbasov Şahvələd Tahir oğlunun adına tikilmiş bulağın əsaslı təmirdən sonra açılışı olub.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə şəhidin ruhuna dua oxunub, əziz xatirəsi ehtiramla yad edilib.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışıb. Qeyd edib ki, cəbhə bölgəsində yerləşən Qazax rayonu 285 şəhid verib. Onlardan 7 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Azərbaycan Yazıçılar Birliyinin Qazax zona filialının sədri, Əməkdar İncəsənət Xadimi, şair Barat Vüsal Vətən uğrunda canından keçən igid oğul və qızlarımızın xatirəsinin əziz tutulmasından söz açıb.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Azərbaycan Ordusunun qüdrətindən, döyüş qabiliyyətindən və işğal altındakı torpaqlarımızı hər an azad etməyə hazır olmasından danışıb.

Sonra rayonda keçiriləcək "Qurtuluşdan zəfərə doğru" adlı tədbirin döş nişanını şəhid anasına təqdim edib.

Şahvələd Abbasovun məzunu olduğu Qazax rayon 2 nömrəli tam orta məktəbin direktoru Murğuz Mustafayev şəhidin məktəb illərindən danışıb, onun nümunəvi bir şagird olduğunu qeyd edib. Bildirilib ki, Şahvələd Vətənini sevən igid oğul kimi Cəfərli kəndinin müdafiəsi zamanı şəhid olub. Məktəbin məzunu olan digər şəhid oğullar kimi, Şahvələd Abbasovun da "Şəhidlər" lövhəsində adının və şəklinin əks olunduğu, onun döyüş yolunun məktəblilər üçün bir örnək olduğu vurğulanıb.

Şəhidin anası Gülsüm Abbasova şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə ailəsi adından minnətdarlığını bildirib.

Şahvələd Abbasovun qardaşı Şücayət Abbasov qardaşının qanının yerdə qalmayacağını, işğal olunmuş ərazilərimizin tezliklə geri qaytarılacağını və üçrəngli Azərbaycan bayrağının həmin torpaqlarda dalğalanacağını qeyd edib.

Sonra Qazax Uşaq Gənclər Mərkəzinin dərnək üzvləri, 2 nömrəli tam orta məktəbin şagirdləri və şəhid Qoşqar Qurbanovun qızı Həmayə Qurbanova tərəfindən Vətənə, şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirilib.

# "Məqsədimiz yeni növ hərbi təyinatlı məhsullar istehsal etməklə yanaşı, ixrac imkanlarını artırmaqdır"

*Müdafiə Sənayesi Nazirliyinin dəstəyi və yaxından köməyi ilə dünyada ən müasir texnologiyalar Azərbaycana gətirilib. Bu gün Müdafiə Sənayesi Nazirliyinin tərkibində 28 zavod və 58 istehsal sahəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində ölkəmizdə ən yüksək texnologiyalar əsasında müdafiə qabiliyyətli məhsullar istehsal olunur.*

Bunu Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri Yavər Camalov iyunun 11-də Parisdə AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində deyib.

Yavər Camalov bildirib ki, nazirlik indiyədək 60-a yaxın beynəlxalq sərgiyə qatılıb. Paris sərgisi ən böyük sərgilərdəndir. Burada 63 ölkədən 1700-dən artıq şirkət iştirak edir.

Ölkəmizin "Ekspo-2025" Ümumdünya Sərgisinə namizədliyi barədə danışan Yavər Camalov Bakının bu sərgiyə yüksək səviyyədə ev sahibliyi edə biləcəyini əminliklə vurğulayıb. Qeyd edib ki, Parisdəki sərgi çərçivəsində keçirilən görüşlərdə, dünyanın aparıcı şirkətləri ilə aparılan danışıqlarda və müzakirələrdə "Ekspo-2025" ilə bağlı suallar cavablandırılıb.

"EUROSATORY-2018" sərgisində iştirakımızın əsas məqsədlərindən biri hərbi-texniki əməkdaşlığı daha da genişləndirmək və əməkdaşlıq etdiyimiz şirkətlərin sayını artırmaqdır. Cari il sentyabrın 25-dən 27-dək Azərbaycanda üçüncü beynəlxalq müdafiə sənayesi sərgisi keçiriləcək. Bugünkü görüşlərimizdə sentyabrda təşkil olunacaq sərgi haqqında ətraflı məlumat verdik. Şirkətlər sərgidə iştirak edəcəklərini təsdiqləyiblər", - deyə nazir vurğulayıb.

Ölkəmizdə yeni növ hərbi təyinatlı məhsulların istehsalı üçün Fransanın, Almaniyanın, eləcə də dünyanın ən böyük müdafiə sənayesi şirkətləri ilə danışıqların aparıldığını və niyyət protokollarının imzalandığını vurğulayan nazir deyib: "Biz həmin şirkətləri ölkəmizə dəvət etdik ki, onların mütəxəssisləri Azərbaycana, bizim mütəxəssislər də həmin ölkələrə gedib bu sahədə qarşılıqlı təcrübələrlə yaxından tanış olsunlar və beləliklə, yeni növ müdafiə məhsullarının istehsalına başlayaq".

Yavər Camalov qeyd edib ki, Müdafiə Sənayesi Nazirliyi ordumuzun ehtiyaclarını tam təmin etməklə yanaşı, bəzi məhsulları ixrac edir. "İxrac imkanları getdikcə artır. Beynəlxalq sərgilərdə iştirakımızın əsas məqsədlərindən biri ən yeni texnologiyaları ölkəmizə gətirməklə yeni növ hərbi təyinatlı məhsullar istehsal etməklə yanaşı, ixrac imkanlarını da artırmaqdır".

# Cümhuriyyətin 100 illik yubileyi münasibətilə tədbir keçirildi

*Bu günlərdə Bakı şəhəri Nəsimi rayonunda yerləşən şəhid Saleh Poladi adına 159 nömrəli tam orta məktəbdə "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə Azərbaycan Ordusunun 100 illik yubileyi münasibətilə tədbir keçirildi.*





Tədbirdə Müdafiə Nazirliyinin və Nəsimi rayon İcra Hakimiyyətinin nümayəndələri, 159 nömrəli məktəbin şagirdləri və müəllim heyəti iştirak edirdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Mərasimi açıq elan edən məktəb direktoru Vahid Xəlilov məktəblilərin vətənpərvərlik hissinin yüksəldilməsi naminə təşkil olunmuş bu tədbirdə əməyi keçən hər bir kəsə dərin minnətdarlığını bildirdi. "Vətənpərvərlik hissi ailədə formalaşan bir hiss olsa da, məktəbdə təməli daha da möhkəmlənir. Müəllim heyətinin üzərinə düşən əsas vəzifə gələcəkdə dövlətinə, millətinə layiq olan sadiq bir vətəndaşın formalaşmasında vasitəçi olmaqdır. Bugünkü tədbirdə gələcəyimizin əsgərləri iştirak edirlər. Belə tədbirlərin kütləvi hal almasında hər bir vətəndaş maraqlı olmalıdır. Milli ordumuzun yaranmasında müstəsna rollar oynamış tarixi şəxsiyyətlərimizi hər bir övladımız tanımalıdır. Əsası 100 il əvvəl siyasi vəziyyətin çətin olduğu dövrdə qoyulmuş ordumuz bu gün düşmənin cavabını vermək iqtidarındadır".

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov bildirdi ki, dövlətimizin qazandığı uğur hər birimizin uğurudur. "Bu gün 100 illiyini qeyd edən ordumuz keşməkeşli yollardan keçib. Hazırda ordumuz dünyanın aparıcı orduları sırasındadır. Düşmən tapdağında olan torpaqlarımız müharibə yolu ilə azad olunacağı təqdirdə ordumuz düşmənin qorxulu yuxusuna çevriləcək".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova ordumuzun xalqımızın qürur yeri olduğunu qeyd etdi: "Cəbhəyanı bölgələrdə torpaqlarımızı qoruyan gənclərimiz bizlərin firavan yaşaması üçün gecə-gündüz ön xətdə xidmət aparırlar. Ordumuzun bugünkü modern səviyyəyə gəlib çatmasında müstəsna rolu olan şəxsiyyətlər olub. Onların hər birinin ruhu bizim üçün əzizdir. Ordumuzun ilkin fəaliyyət illəri Səməd bəy Mehmandarov, Əlağa Şıxlınskinin adı ilə bağlıdırsa, müasir ordu quruculuğu prosesi ümummilli lider Heydər Əliyevin və Ali Baş Komandanımız İlham Əliyevin adı ilə bağlıdır. Tarixi şəxsiyyətlər heç vaxt unudulmur. Tariximizi hamımız dərindən bilməli və dövlətimizin uğurları üçün çalışmalıyıq. Hər birinizə gələcək həyatınızda bol-bol uğurlar arzu edirəm".

Tədbir məktəblilərin ifasında vətənpərvər mövzuda şeirlərin oxunması, milli rəqslərin nümayişi ilə başa çatdı.

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Sənayesi Nazirliyi ilə "Rheinmetall" şirkəti arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb

*İyunun 11-də Parisdəki "Villepinte" sərgi mərkəzində Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin (MSN) də təmsil olunduğu "EUROSATORY-2018" Beynəlxalq müdafiə və təhlükəsizlik sərgisinin rəsmi açılışı olub.*




AZƏRTAC xəbər verir ki, sərgidə Azərbaycanı Baş nazirin birinci müavini Yaqub Eyyubov və Müdafiə Sənayesi naziri Yavər Camalovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Dünyanın inkişaf etmiş ölkələrindən qabaqcıl şirkətlərin qatıldığı sərgidə MSN-in müəssisələrində istehsal edilən 270 addan çox silah sistemləri, müxtəlif çaplı döyüş sursatları, "Tufan", "Matador", "Marauder" kimi zirehli və mina əleyhinə nəqliyyat vasitələri, "Gürzə" patrul maşını nümayiş olunur. NATO standartlarına tam cavab verən "Yalquzaq" (7,62 mm) və "Vaşaq" (8,6 mm) snayperləri, hücum pulemyotu (62 mm, HP-7,62), eləcə də məsafədən idarə olunan döyüş modulu sərgi iştirakçılarının və ziyarətçilərin diqqətini xüsusilə cəlb edib. Silahla (12,7 mm) təchiz edilmiş məsafədən idarə olunan döyüş modulu və "NST-14,5" iriçaplı snayper tüfəngi ilk dəfə bu sərgidə nümayiş etdirilib. "EUROSATORY" sərgisində ilk dəfə təmsil olunan MSN-in nümayiş etdirdiyi məmulatlar ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Sərginin birinci günündə Baş nazirin birinci müavini Yaqub Eyyubovun və Müdafiə Sənayesi naziri Yavər Camalovun Fransanın "Thales" şirkətlər qrupunun regional direktoru ilə görüşü olub. Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Həmçinin nazir Yavər Camalovun Fransanın "Nexter" şirkətinin nümayəndə heyəti ilə görüşündə ikitərəfli əməkdaşlığa dair danışıqlar aparılıb.

Eyni zamanda, Yavər Camalov Almaniyanın "Rheinmetall" şirkətinin nümayəndə heyəti ilə də görüşüb. Görüşün sonunda Müdafiə Sənayesi Nazirliyi ilə "Rheinmetall" şirkəti arasında ikitərəfli əməkdaşlığa dair niyyət protokolu imzalanıb.

Görüşlərdə Bakının Beynəlxalq Sərgilər Bürosu tərəfindən 2025-ci ildə keçiriləcək "Ekspo-2025" Ümumdünya Sərgisinə ev sahibliyi ilə bağlı namizədliyinin dəstəklənməsi barədə geniş müzakirələr aparılıb.

Sərgidə iştirak edən şirkətlər Azərbaycanın stendinə və ölkəmizin hərbi təyinatlı məhsullarına böyük maraq göstəriblər.

"EUROSATORY-2018" Beynəlxalq müdafiə və təhlükəsizlik sərgisi iyunun 15-dək davam edəcək.

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları ilə görüş keçirilib

*İyunun 11-də ulu öndər Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin və Milli Ordunun 100, Milli Qurtuluş Gününün 25 illik yubileyləri münasibətilə Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatının bir qrup fəalının Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları ilə görüşü keçirilib.*

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyublar.

Sonra YAP Nəsimi rayon təşkilatının fəalları və kursantlar Ali Hərbi Məktəbin ərazisində Milli Ordunun yaradılmasının



100 illik yubileyinin şərəfinə 100 ədəd ağac əkiblər. Həmçinin kursantların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə YAP Nəsimi rayon təşkilatı tərəfindən Ali Hərbi Məktəbin kitabxanasına Ulu Öndərin və Prezident İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən kitablar və kursantların istirahət otağı üçün televizor hədiyyə olunub.

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, bu il ölkəmizin hər bölgəsində müasir müstəqil dövlətimizin qurucusu Heydər Əliyevin anadan olmasının 95 və Milli Qurtuluş Gününün 25 illik yubileyləri təntənəli şəkildə qeyd edilir. Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı tərəfindən də bu əlamətdar hadisələrlə bağlı silsilə tədbirlər hazırlanıb. O, kursantları 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edib, onlara gələcək həyatlarında müvəffəqiyyətlər arzulayıb.

M.İbrahimqızı Azərbaycanın dövlətçilik tarixindən, müstəqilliyinin ilk illərində qarşılaşdığı problemlərdən danışıb. Bildirilib ki, ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdışından sonra Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən qurtulub, ölkədə hüquqi, demokratik dövlət quruculuğu istiqamətində çox mühüm işlər görülüb. Xalqımızın maddi rifah halı yüksəlməyə başlayıb. Dahi rəhbər bacarığı, işgüzarlığı və uzaqgörənliyi sayəsində dünya siyasi tarixində özünəməxsus yer tutur. Bütün dövrlərdə gücünü, dərin zəkasını xalqının yolunda sərf edən Ulu Öndər daxili və xarici təzyiqlərə, çətinliklərə baxmayaraq, müstəqil Azərbaycan dövlətini yaradıb.

Milli Məclisin deputatı, həmçinin 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılan, ilk dünyəvi, demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətindən, gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 aylıq fəaliyyəti dövründə qazandığı nailiyyətlərdən bəhs edib. Bildirib ki, dövlətimizin başçısının 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi Cümhuriyyət dövründə həyata keçirilmiş tədbirlərə yüksək dəyərin təcəssümüdür. "Azərbaycan Xalq Cümhuriyyəti İli" həm də Azərbaycan Ordusunun 100 illik yubileyi ilidir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuz güclənir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun müasir standartlara tam uyğunlaşdırılması məqsədilə aparılan səmərəli işlər nəticəsində Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib.

Nəsimi rayon Ağbirçəklər Şurasının sədri, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü Zərifə Quliyeva çıxış edərək bildirib ki, 1993-cü ilin iyununda Azərbaycan xalqı Ümummilli Liderin hakimiyyətə qayıdışını təkidlə tələb edib. "Ulu öndər Heydər Əliyev uzaqgörən və müdrik siyasəti ilə xalqımızı və dövlətimizi düşdüyü ağır vəziyyətdən xilas etdi. O, belə bir ağır məsuliyyəti üzərinə götürərək hakimiyyətə qayıtdı və Azərbaycan xalqını düçar olduğu böhranlı vəziyyətdən çıxardı.



Məhz Ulu Öndərin müdrikliyi və qətiyyəti sayəsində ölkəmizdə vətəndaş qarşıdurmasına son qoyuldu, Azərbaycanın dövlət müstəqilliyi məhv olmaq təhlükəsindən xilas edildi".

Diqqətə çatdırılıb ki, müstəqillik dövründə, xüsusən ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Cümhuriyyət dövrünün tədqiqi və təbliği istiqamətində mühüm addımlar atılıb və bu istiqamətdə işlər davam etdirilir. O, Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil respublikamızın Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq sürətlə inkişaf etdiyini və dünya birliyində layiqli yer tutduğunu bildirib.

Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva qeyd edib ki, 100 illiyini qürur hissi ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması çoxəsrlik tariximizin, mədəni inkişafımızın, xalqımızın milli azadlıq mübarizəsinin məntiqi yekunu olub. Həmin dövrdə müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, Azərbaycanın gələcək müstəqilliyi üçün əsaslı hüquqi zəmin hazırlanıb. O, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Xalq Cümhuriyyətinə fəaliyyətinə siyasi-hüquqi qiymətin verildiyini bildirib. Qeyd edib ki, ulu öndər Heydər Əliyev xalqa dayaq durmasaydı, bu gün Cümhuriyyətimizin 100 illiyini qeyd edə bilməzdik. Biz bu günümüzə və gələcəyimizə görə Ümummilli Liderə borcluyuq.

Görüşdə digər çıxış edənlər ümummilli lider Heydər Əliyevin fəaliyyətindən, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki yerindən, ordu quruculuğu sahəsində əldə edilən nailiyyətlərdən danışıblar.

# Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində "Şəhid Pilotlar" kitabının təqdimatı keçirildi

*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində hərbçi-şairə Zəminə Xınalının "Şəhid Pilotlar" kitabının təqdimat mərasimi keçirildi.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə ictimaiyyət nümayəndələri və şəhid ailələri iştirak edirdilər.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Kitabxana müdiri Zəminə Xınalı "Şəhid Pilotlar" adlı poemasının 1-ci hissəsində ilk hərbi pilotumuz Fərrux ağa Qayıbov və Qarabağ uğrunda canlarını fəda etmiş Vaqif Qurbanov, Təbriz Musazadə, Urfan Vəlizadə, Əbu Bəkir İsmayılov, Yaşar Əhmədov, Yusif Vəliyev, Rüstəm Rüstəmov və Bəhruz Zeynalovun keçdikləri şərəfli döyüş yolundan bəhs etdiyini bildirdi. "Qarabağ uğrunda gedən döyüşlərdə Vətən torpaqlarını canlarından üstün tutan şəhid pilotlarımız, ilk hərbi pilotumuz Fərrux ağa Qayıbovun qəhrəmanlıq yolunun layiqli davamçılarıdır. Onlar düşmən hücumlarına layiqli cavab verməklə torpaqlarımızın sahibsiz olmadığını yağılara bir daha sübut etdilər. Ərazi bütövlüyümüzü bərpa etmək məqsədi xalqımızı bir yumruq kimi birləşdirir. Bu yolda hər birimiz şəhid olmağa hazırıq. Şəhidlərimizin xatirəsi qəlbimizdə daim yaşayacaq. Onların haqq işi uğrunda apardıqları mübarizəni gələcək nəsillərə çatdırmaq bizim vəzifə borcumuzdur".

Şəhid mayor Yusif Vəliyevin atası Hacı Yaqub Vəliyev öz çıxışında bildirdi ki, xalqımız hər zaman şəhidləri ilə fəxr edir və edəcəkdir. "Yusif Qarabağ müharibəsi başlayanda Riqa şəhərində Ali Hərbi Aviasiya Akademiyasında təhsil alırdı. Yurdumuzun dar günündə təhsilini başa vurub Vətənə qayıdan Yusif Naxçıvan şəhərində xidmət etməyə başladı. Oğlum ermənilərlə gedən ağır döyüşlərdə Vətənin səmasında qəhrəmanlıq və şücaət göstərdi, torpaqlarımızın azadlığı uğrunda canını fəda etdi, şəhidlik zirvəsinə ucaldı. Ancaq Yusif ölməyib, o, hər birimizin qəlbində yaşayır".

Yaqub Vəliyev bütün şəhid ailələri adından Ali Baş Komandan İlham Əliyevə şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

Şəhid baş leytenant Əbu Bəkir İsmayılovun anası Rəna İsmayılova öz çıxışında bildirdi ki, "şəhidlərimiz ölümdən qorxmadan sinələrini sipər edərək, xalqımıza qələbə sevincini yaşatdılar, qəhrəman oğullarımız Vətən uğrunda canlarından keçdilər. İllər keçsə də, belə qeyrətli igidlərimiz unudulmayacaq. Əbu Bəkirin dəfn mərasimindəki izdiham xalqımızın öz şəhidinə verdiyi dəyərin bariz nümunəsi idi. Bu günə qədər oğlumun dostları, tələbə və iş yoldaşları tez-tez görüşümə gəlirlər, zəng edirlər. Onların diqqəti mənə böyük qüvvə verir. Nə qədər ki, torpaqlarımız işğal altındadır, ürəyim sakitləşməyəcək. Vətənin dar günündə ən böyük arzum odur ki, oğlum Əkbər də qardaşının yolunu davam etdirsin, onun evdə olan mundirini şərəflə daşısın.

Çıxış edən Pərişan Musazadə, Nəzakət Qurbanova, Arzu Nehrəmli, Səbinə Cəbiyeva və başqaları qeyd etdilər ki, hər biri Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçməyə hər zaman hazırdılar.

Tədbirin sonunda Z.Xınalı iştirakçılara minnətdarlığını bildirdi, "Şəhid Pilotlar" kitabını şəhid ailələrinə təqdim etdi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**



# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

Müdafiə Nazirliyinin hərbi hissələrinə müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək hərbi vəzifəlilər iyunun 20-dək müvafiq sənədlərlə birlikdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, eləcə də hərbi birliklərin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarına müraciət edə bilərlər.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar qəbul komissiyaları tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən, hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq, liderlik və qərar qəbuletmə bacarıqları, həmçinin fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər kursa qəbul edilirlər.

Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə 3 (üç) il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

**Namizədlər qəbul komissiyalarına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər**:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap variantı 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin təsdiq edilmiş surəti - 2 nüsxədə;
- şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- qeydiyyatda olduğu poliklinikadan (dəri-zöhrəvi, vərəm, ruhi-əsəb, narkoloji və son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi barədə) arayış;
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş) - 2 nüsxədə;
- məhkumluğun olub-olmaması barədə qeydiyyatda olduğu rayon Polis İdarəsi (şöbə, bölmə) tərəfindən verilmiş arayış.

**Ünvan**: Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi) və hərbi birliklərin qərargahları.

**Müraciət etmə vaxtı:** 2018-ci il iyunun 20-dək hər gün (bazar günləri istisna olmaqla) saat 09.00-dan 14.00-dək.

**Telefon**: (012) 538-85-62.

**Qeyd**: Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin hər hansı bir maddəsi (156-cı maddənin "a" bəndi (xidmət müddəti başa çatdığına görə) istisna olunmaqla) ilə ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğu olan hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin Şırnak vilayətində PKK-nın 19 terrorçusu zərərsizləşdirilib



Türkiyənin Şırnak vilayətinin Bestlər-Dərələr bölgəsində həyata keçirilən sonuncu antiterror əməliyyatları nəticəsində PKK-nın daha 5 terrorçusu zərərsizləşdirilib.

İyunun 8-də başlanan şəhid Çavuş Mustafa Kozak əməliyyatı nəticəsində ümumilikdə PKK-nın 19 terrorçusu məhv edilib.

## Donald Tramp: Kim Çen In ilə görüş çox yaxşı keçdi



ABŞ Prezidenti Donald Tramp Koreya Xalq Demokratik Respublikasının (KXDR) Dövlət Şurasının Sədri Kim Çen In ilə təkbətək görüşün çox yaxşı keçdiyini bildirib.

ABŞ Prezidenti Donald Tramp qısa açıqlamasında böyük problemlərinin həllinə nail olacaqlarını deyib.

Qeyd edək ki, Sinqapurda KXDR lideri Kim Çen In ilə ABŞ Prezidenti Donald Tramp arasında təkbətək görüşdən sonra geniş tərkibdə danışıqlar olub. Müzakirələrdə hər iki ölkə üçün aktual olan məsələlər - Birləşmiş Ştatlarla Şimali Koreya arasında yeni münasibətlərin qurulması, Koreya yarımadasında daimi sülhün əldə edilməsi, yarımadanın nüvə silahsızlaşdırılması prosesinin reallaşması diqqət mərkəzindədir.

## ABŞ-a məxsus qırıcı təyyarə Yaponiyada qəzaya uğrayıb



ABŞ-ın Hərbi Hava Qüvvələrinə məxsus "F-15" qırıcı təyyarəsi Yaponiyanın cənubunda qəzaya uğrayıb.

Bu barədə NHK telekanalı məlumat yayıb.

Məlumata əsasən, katapult edən pilot ağır xəsarətlər alıb.

Qeyd edək ki, qırıcı təyyarə Kadena hərbi bazasından Okinava adasına doğru uçurmuş.

Kadena ABŞ-ın Hərbi Hava Qüvvələrinin Birləşmiş Ştatların sərhədlərindən kənardakı ən böyük bazasıdır.

## Türkiyədə lazer müdafiə sisteminin uğurlu sınağı keçirilib



Türkiyədə yerli istehsal olan lazer müdafiə sisteminin (LMS) ilkin sınağı uğurla başa çatıb.

Yeni lazer müdafiə sistemi Türkiyənin ASELSAN şirkətində istehsal olunub. Tamamilə yerli istehsal olan bu sistem zirehli hərbi maşın üzərində yerləşdirilir. Bu silah təsbit edilmiş təhlükəli hədəfi, o cümlədən pilotsuz aparatın özünü, onun apardığı yükü və yaxud kamerasını dəqiq zərərsizləşdirmək qabiliyyətinə malikdir.

## İranda antiterror əməliyyatı keçirilib



İranın dövlət sərhədini mütəmadi pozaraq qanunsuz yollarla ölkəyə daxil olmaq istəyən silahlı qruplara qarşı antiterror əməliyyatı keçirilib.

Bu sözləri İran İslam İnqilab Keşikçiləri Korpusunun quru qoşunları komandiri Məhəmməd Pakpurun mətbuata açıqlamasında deyib. Onun sözlərinə görə, ölkənin cənub-şərqində keçirilən əməliyyatda PKK terror təşkilatının İran qolu olan PJAK üzvləri məhv edilib.

M.Pakpur qeyd edib ki, əməliyyat zamanı 16 terrorçu zərərsizləşdirilib. Əməliyyatda iştirak edən İran İslam İnqilab Keşikçiləri Korpusunun şəxsi heyəti itki verməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi Dəniz Qüvvələrində intellektual bilik yarışı keçirildi





Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində Hərbi Dəniz Qüvvələri və Qaradağ rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 15 İyun Milli Qurtuluş Gününə və Azərbaycan Ordusunun yaranmasının 100 illik yubileyinə həsr olunmuş intellektual bilik yarışı keçirildi.

Tədbirdə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan 1-ci dərəcəli kapitan Natiq Bağırov bildirdi ki, 15 İyun Milli Qurtuluş Günündə dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edildi: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunmağa başlandı. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır. Qədirbilən xalqımız Böyük Xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyyə ilə qeyd edir."

Tədbirdə iştirak edən Qaradağ rayon Gənclər və İdman İdarəsinin müdiri Elçin Abbasov dedi ki, respublikamızın hər bir guşəsində bu tarix Azərbaycanın ən şərəfli tarixi günlərindən biri kimi qeyd olunur. "Heydər Əliyevin Vətənimiz üçün gördüyü işlər daim yaddaşlardadır. Bu yaddaşa bir estafet kimi yaşlı nəsildən gənc nəslə ötürülməli, Ulu Öndərin irsi gənclər tərəfindən öyrənilməli və təbliğ edilməlidir. Bu məqsədlə Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş bilik yarışı müstəsna əhəmiyyətə malikdir. Belə yarışların keçirilməsində məqsəd hərbi qulluqçuların asudə vaxtlarını səmərəli təşkil etmək, intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, sağlam elmi rəqabət mühiti yaratmaq, şəxsi heyətə yeni biliklər qazandırmaq, həmçinin mədəniyyətimizin, ədəbiyyatımızın, dilimizin, dinimizin, torpağımızın tarixini daha dərindən öyrətməkdən ibarətdir.

Münsiflər heyətinin üzvləri - Qaradağ rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi İlqar Qasımov, Qaradağ rayon Heydər Əliyev Mərkəzinin əməkdaşı Afət Hüseynova, Qaradağ Gənclər Evinin direktoru Səbuhi Dadaşzadə çıxış edərək hər bir komandaya uğurlar arzuladılar. Ən güclü və ən layiqli komandanın qalib gəlməsini dilədilər.

Qaydalar və şərtlər iştirakçıların nəzərinə çatdırıldıqdan sonra bilik yarışına start verildi. Hər komandada 5 nəfər olmaq şərtilə yarışda ümumilikdə 8 komanda iştirak edirdi. Yarışda bir-birindən maraqlı suallar səsləndirildi və hər bir sualın cavablandırılması üçün komandalara bir dəqiqə vaxt verildi. Bilik yarışması bütün komandaların xüsusi fəallığı, münsiflər heyətinin ciddi nəzarəti altında keçirildi.

Gərgin mübarizə şəraitində keçən yarışmada birinci yeri yüksək bilik səviyyəsi, geniş dünyagörüşü və hazırcavablıqları ilə seçilən "Sahil" komandası tutdu. İkinci və üçüncü yerləri isə müvafiq olaraq "Dəniz", "Şahinlər" komandaları qazandılar.

Sonda qalib gələn komandalar diplom və medallarla mükafatlandırıldılar.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Yeni kitablar*

# Azərbaycan Ordusunun 100 illiyinə həsr edilən kitab

***Bu günlərdə yazıçı-publisist Zemfira Məhərrəmlinin Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş "Qarabağ müharibəsi: zərif talelər" adlı növbəti kitabı çapdan çıxıb. Kitaba döyüşçü qadınların döyüş yolundan bəhs edən sənədli hekayələr və portret oçerklər toplanıb.***

Azərbaycan qadınının çox şərəfli, fəxr ediləsi bir qəhrəmanlıq tarixi var, Qarabağ müharibəsində vuruşan qızlar isə qəhrəmanlıqları ilə bu tarixə yeni səhifələr yazıblar. Müəllif kitabda Qarabağ müharibəsi qurbanlarının - məşəqqətli əsrlik həyatına məhkum olmuş azərbaycanlı qızgəlinlərin ağrılı və üzücü taleyindən də bəhs edir. Kitabı oxuyarkən, Qarabağ savaşı ilə üzləşən qadınların taleləri bəzən bizi sevindirir, bəzənsə ürəyimizi göynədir. Zemfira xanım kitabında müharibə gedən günlərdə qələmi ilə döyüşən xanım jurnalistlər haqqında da portret oçerklərə də geniş yer verib.

"Qarabağ müharibəsi: zərif talelər" kitabına ehtiyatda olan polkovnik, tarix elmləri doktoru Mehman Süleymanov və Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Cəbi Bəhramov ön söz yazıblar.

Bu günlərdə "Azərkitab" - Kitab Təbliğatı Mərkəzində "Qarabağ müharibəsi: zərif talelər" kitabının təqdimat mərasimi keçirildi. Tədbiri əməkdar jurnalist Əntiqə Qonaq açıq elan edərək həm kitab, həm də onun müəllifi yazıçı-publisist haqqında iştirakçılara ətraflı məlumat verdi. Tədbirdə kitabın redaktoru, Azərbaycan Yazıçılar Birliyinin mətbuat xidmətinin rəhbəri, şair-publisist Xəyal Rza, Veteran Qadınlar Birliyinin sədri Radə Abbasova, hərbi mahnılar və marşların müəllifi Şahin Musayev, yazıçı-publisist Həbib Əliyev, jurnalist Şəmsiyyə Kərimova, qələmi ilə döyüşən, müharibə mövzusunda yazılmış bir neçə kitabın müəllifi Aidə Eyvazlı, əməkdar jurnalist Səriyyə Müslümqızı, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli və başqaları çıxış edərək kitabın bu günümüz və sabahımız üçün olan böyük əhəmiyyətindən ətraflı danışdılar.




Döyüşçü qadınlardan Kəmalə Qəhrəmanova, Aliyə Piriyeva, Elmira Rəsulova, Nərminə Abbasquliyeva və başqaları da çıxış edərək müharibə ilə bağlı xatirələrindən söz açdılar. Onların döyüş yollarını əbədiləşdirən və tarixiləşdirən yazıçı-publisist Zemfira Məhərrəmliyə dərin minnətdarlıqlarını bildirdilər.

Yazıçı-publisist Zemfira Məhərrəmli həm tədbir iştirakçılarına, həm də kitabın nəşr olunmasında göstərdiyi dəstəyə görə Regional Hüquqi və İqtisadi Maarifləndirmə İctimai Birliyinin rəhbərliyinə təşəkkürünü bildirdi.

**Vahid MƏHƏRRƏMOV**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan ordusunun bölmələrindən birində növbəti qalmaqallı hadisə baş verib.

İşğal olunmuş Ağdərə ərazisində yerləşdirilən hərbi hissədə xidmət edən leytenant Masis Muradyan və gizir Narek Aslanyan vəzifə səlahiyyətlərini aşdıqlarına görə cinayət məsuliyyətinə cəlb olunublar.

Araşdırma zamanı maraqlı bir fakt da ortaya çıxıb. Belə ki, hərbi polisin sorğusu əsasında məlum olub ki, leytenant M.Muradyan əvvəllər də məhkum olunub.

İstintaq davam edir. Leytenant M.Muradyanın bu faktı gizlətməsi və cinayətkarın zabit kimi hərbi xidmətə necə çağırılması məsələsi də araşdırılır.

* * *

İşğal olunmuş Dağlıq Qarabağın yaşayış məntəqələrindən birində yerləşdirilən Ermənistan ordusunun əsgəri döyüş postunu ataraq qaçıb. On xətt bölmələrindən birində növbə çəkərkən xidmət yerini özbaşına tərk edən əsgər əslən Ermənistanın Ararat vilayətindəndir.

Məlumatda deyilir ki, komandanlıq bir gün sonra tutulub hərbi hissəyə gətirilən əsgərin cinayət məsuliyyətinə cəlb edilməsi barədə hərbi polisə məktub göndərib.

Postu atıb qaçan əsgər Qriqor Chitchyan izahatında buna səbəb olaraq Qarabağdan olan ermənilər tərəfindən incidilməsi və alçaldılmasını göstərib.

Əsgərin izahatına əsasən araşdırma aparılır və hadisədə iştirak edən başqa hərbi qulluqçuların da məsuliyyətə cəlb ediləcəyi istisna edilmir. İstintaq davam edir.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən erməni Eldar Mirzoyan adlı zabit şəxsi heyətə qarşı nizamnamədən kənar münasibətlərə yol verdiyinə və vəzifə səlahiyyətlərini aşdığına görə barəsində cinayət işi açılıb.

Məlumatda qeyd olunur ki, hissə komandirinin artilleriya üzrə köməkçisi vəzifəsində xidmət edən zabit E.Mirzoyan cinayət işinin istintaqı ilə bağlı hərbi polisə aparılıb. Həmçinin o da məlumdur ki, istintaqı aparan müstəntiqdə zabit tərəfindən incidilən 10-dan artıq hərbi qulluqçunun yazılı izahatı var.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Kərimov Yavuz İsmayıl oğluna məxsus Abşeron rayonu Goradil qəsəbəsi Bağlar massivində yerləşən 309 nömrəli evə aid sənədlər itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 420
Nüsxə 3525